| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.12.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1446-VQD |
| **ADI** | "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 30-12-2018, Nəşr nömrəsi: 296), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2018, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2530) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 30.12.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 420.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201812281446 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 04.01.2019 |

**“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1084; 2006, 12, maddə 1031; 2008, 6, maddə 462; 2011, 7, maddə 592; 2014, 12, maddə 1516; 2016, 4, maddə 643; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1302-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü maddəyə “xüsusi qaydalar” sözlərindən sonra “(bu Qanunun 30.5-ci maddəsində müəyyən olunmuş hallar istisna olmaqla)” sözləri əlavə edilsin.

2. aşağıdakı məzmunda 30.5-ci maddə əlavə edilsin:

“30.5. İnzibati orqan qanunla ərizəyə əlavə edilməli olan sənədləri, o cümlədən elektron sənədləri əldə etmək üçün dövlət orqanlarının (qurumlarının) elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müəyyən olunmuş hədlərdə istifadə edir. Bunun mümkün olmadığı hallarda həmin sənədlərin təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında aidiyyəti orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin olunur. Həmin sənədlər bu Qanunun 32.4-cü maddəsinə uyğun olaraq kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2018-ci il
1446-VQD